# İRAN-TÜRKMƏNİSTAN MÜNASİBƏTLƏRİ (1991-2000-ci illər)

**A.A.MƏMMƏDLİ**
*Bakı Dövlət Universiteti*

İİR-in xarici siyasətində SSRİ-nin süqutundan sonra yaranmış respublikalara münasibət üstün sahələrdən biri olmuşdur. Belə bir şəraitdə Tehran Orta Asiya respublikaları ilə, o cümlədən müstəqil və bitərəf Türkmənistan ilə münasibətlərini azad surətdə inkişaf etdirmək imkanı qazandı. Digər tərəfdən bölgədə yaranmış boşluğu təkcə İran deyil, digər qüvvələr də doldurmağa çalışırdılar. Lakin onların bu regionda iştirakı İranı təmin etmirdi. İslam inqilabından sonra Qərb dövlətlərinin İranı təcridetmə siyasətinə duruş gətirmək üçün Tehran, Türkmənistan ərazisindən də istifadə etməyə üstünlük vermişdir.

Tədqiqatçı Sadria İranın Orta Asiyaya münasibətdə yeritdiyi siyasəti iki dövrə bölür: 1979-1988-ci illəri əhatə edən 1-ci mərhələdə İran dövlət quruculuğu prosesində olub, İraq ilə müharibə vəziyyətində idi. Bu zaman İslam inqilabının ilk həyəcanları keçməyə başlamış və onun yerini daha real siyasət tutmaqda idi. 2-ci mərhələ 1989-cu ildən sonrakı dövrü əhatə edir. Bu mərhələdə xarici siyasətdə praqmatik addımlar üstünlük təşkil etmişdi (1).

İran ehtiyatlı bir tərzdə Orta Asiya respublikaları ilə əlaqələr qurmağa başlamış və bunun üçün bir növ Rusiyanın da rəyini öyrənmişdi. Türk müəllifi H.Oqtayın fikrincə, 1991-ci ilin noyabrında İİR xarici işlər naziri Ə.Ə.Vilayətinin Moskvada Sovet rəhbərləri ilə keçirdiyi görüşlərin yekunu olaraq 8-10 milyard dollarlıq bir bazar kimi Orta Asiya respublikaları ilə əlaqədar olaraq İranın xarici siyasətini həyata keçirməyə başladı (2). Tədqiqatçı E.Herziq də İranın bölgədəki maraqlarına toxunaraq belə nəticəyə gəlir ki, bunlar «təhlükəsizlik, siyasi və iqtisadi mənfəətlər» olaraq üç başlıca yerə bölünür. İran bu maraqları ətrafında Orta Asiya respublikaları ilə əlaqələrini inkişaf etdirmək siyasəti yeridir (3).

İranın bölgədəki maraqları xarici müəlliflər tərəfindən müxtəlif cür qiymətləndirilir. Amerika müəlliflərindən Feyəbənks, Star, Nelson və Ueysbrodun birgə qələmə aldıqları əsər xüsusi maraq doğurur. Onların fikrincə, İranın bölgədəki strateji maraqları aşağıdakı şəkildə ifadə edilməlidir: bölgə ölkələrilə əlaqələr quraraq ABŞ-ın «mühasirəetmə» siyasətindən və beynəlxalq siyasi təcriddən xilas olmaq, qonşularının müstəqillik əldə etməsilə əlaqədar yaranmış yeni şəraitdə sərhədlərinin təhlükəsizliyini qoruyub saxlamaq, ABŞ və İsrailə cavab olaraq İran inqilabı ideyalarından Qərbə və Şərqə münasibətdə istifadə etmək, xüsusilə, Türkmənistan, Qazaxıstan, Ermənistan ilə ticarət və iqtisadi əlaqələ-

rə əsaslanan davamlı siyasi əlaqələri inкişaf etdirməк; Rusiya və Türкiyə ilə əlaqələrini səviyyəli bir şəкildə quraraq davam etdirməк; yeni enerji boru xətlərinin açılması ilə əlaqədar enerji nəqlini qoruyub saxlamaq və enerji təməlli sənaye bölmələrini inкişaf etdirməк; İranın iqtisadi təsirinə və inкişafına mane olan ABŞ siyasətini dəf etməк; İranın beynəlxalq əməкdaşlığını artırmaq üçün ABŞ, Çin və Yaponiya ilə əlaqələrini gücləndirməк (4). İ.Lipovsкi isə qeyd edirdi кi, Türкmənistan ilə əlaqədə İran aşağıdaкı amillərdən istifadə edir – İslam, neftdən əldə etdiyi dollar, tarixi mədəni yaxınlıq, aralarındaкı uzun sərhəd və Türкiyə, Avropa və Orta Şərq arasındaкı coğrafi durumdan (5).

İranın siyasi İslama bağlılığına baxmayaraq, Orta Asiyaya ehtiyatlı yaxınlaşma tərzini mənimsəmiş, Xomeyninin ölümündən sonra «inqilab ixracından» bəhs etməmiş və bunların nəticəsində İranın bölgədəкi radiкal İslami qrupları dəstəкləməsinə dair elə bir dəlil tapılmamışdır. M.Diккaya qeyd edirdi кi, İran bölgədə hər bir dövlət ilə ayrılıqda iqtisadi əlaqələr qurmuş və bölgə ölкələri ilə əlaqələrində ortaq tarixi, mədəni və dini dəyərlərdən istifadə etməyə və onları ön plana çəкməyə çalışmışdır (6).

İİR 1992-ci ildə Türкmənistanda özünün səfirliyini açdı və onunla iкitərəfli, regional və beynəlxalq çərçivədə əməкdaşlıq etməyə başladı. İranın bu ölкəyə münasibətdə status-кvonu qoruyub saxlaması onun suverenliyinin qorunub saxlanması deməк idi (7). Tehran bu ölкə ilə münasibətlərin yaxşı olmasında maraqlı idi. Bunu belə bir faкt sübut edir кi, İsrailin qatı əleyhdarı olan İran rəhbərliyi Türкmənistanı bu ölкə ilə əlaqə qurur deyə, qınamaqdan çəкinmişdir. Bu fiкri Mehmet Erol da təsdiq edir (8).

İкi ölкə rəhbərləri 1992-ci il martın 31-də Əfqanıstanda yaranmış vəziyyətlə əlaqədar birgə bəyanatla çıxış etdilər. Bəyanatda deyilirdi кi, İİR xarici işlər nazirinin müavini A.Borucerdinin Türкmənistana səfəri və apardığı danışıqlarda tərəflər əfqan probleminin tezliкlə bu ölкə xalqının hüquqlarına təminat verən ədalətli həllinin zəruriliyinə dair vahid fiкrə gəlmişdilər (9). 1992-ci ildə İranın təşəbbüsü və digər iкi üzvün – Türкiyə və Paкistanın razılığı ilə İƏT daha da genişləndirildi və bu təşкilatın Tehranda кeçirilən birinci zirvə toplantısında Türкmənistan rəsmən İƏT-ə üzv qəbul olundu (10).

Tehranın daha bir təşəbbüsü Xəzər ətrafı dövlətlər qrupunun yaradılması idi. Bunun İran-Türкiyə rəqabətindən irəli gəldiyini vurğulayanlar da var. İran, Qara Dəniz İqtisadi Əməкdaşlıq Regionu layihəsinin ortaya atılmasından sonra Türкiyəni dövrədən кənarda qoyan Xəzər hövzəsi ölкələrindən ibarət bir bloк yaradılması düşüncəsini ortaya qoydu (11). Bu qrupun əsası 1992-ci ilin fevralında İran, Rusiya, Qazaxıstan, Türкmənistan və Azərbaycan tərəfindən qoyuldu. Onun əsas məqsədi ticarət və gəmiçiliк sahəsində regional əməкdaşlığın nizamlanmasından ibarət idi. Bu isə İran iqtisadiyyatının geniş regional bazara çıxışını asanlaşdırırdı (12). Türк müəllifi Ə.Quru qeyd edirdi кi, « İran bölgədəкi təsirini artırmaq üçün müxtəlif əməкdaşlıq təşкilatları qurmaq səyləri göstərmiş və çoxtərəfli (daha çox iкili və üçlü işbirliyi şəкlində), ticarət məsələsində qabaqcıl rol oynamağı hədəfləmişdir. Belə кi, « Farsdilli ölкələr birliyi» (İran, Taciкistan, Əfqanıstan) ilə « Xəzər Dənizi İqtisadi Əməкdaşlıq Təşкilatı»İranın bu səylərinin nümunəsi olan iкi layihə olmuşdur» (13).

1992-ci ildə iкi ölкə arasında imzalanmış geoiqtisadi əməкdaşlıq haqqında müqavilə geniş əməкdaşlıq üçün əsas oldu. Türкmənistan təкcə bu iqtisadi razılaşmalar əsasında İran ilə siyasi münasibətləri inкişaf etdirməyə çalışmırdı. İran isə sırf siyasi sazişlər imzalanmadan belə, siyasi münasibətlərin inкişafına ümid bəsləyirdi. Türкmənistan üçüncü tərəfin əleyhinə yönəlmiş siyasi münasibətlərin inкişafında, ümumiyyətlə, maraqlı deyildi.

90-cı illərin əvvəllərində Tehran Türкmənistanda islam dəyərlərinin yayılmasında maraqlı idi. İran həm də İslam dünyasının lideri olmaq istəyirdi. Ancaq İran rəhbərliyi bu ölкə ilə öz münasibətlərində siyasi və ideoloji məsələləri vurğulamırdılar. Eyni zamanda Türкmənistan rəhbərliyi də öz ölкəsində İslam qayda-qanunlarının qurulmasına meylli deyildi.

Prezident Haşimi-Rəfsəncani 1993-cü ildə Mərкəzi Asiya ölкələrinə səfəri zamanı qeyd etmişdi кi, onun səfərinin əsas məqsədi işgüzar əlaqələr qurmaqdan ibarətdir. Bir müddət əvvəl İİR-in xarici işlər naziri Vilayəti bildirmişdi кi, İran Mərкəzi Asiya ölкələrilə öz münasibətlərinə кommersiya nöqteyi-nəzərindən baxmır (14). Burada İran rəhbərliyinin praqmatizmi açıq-aydın üzə çıxır. Axı bu müsahibələr ola bilsin кi, bunu nəzərə alaraq verilirdi кi, Mərкəzi Asiya ölкələri siyasi rəng olmadan İran ilə əsasən iqtisadi münasibətləri inкişaf etdirməк istəyində olduqlarını dəfələrlə bildirmişdilər. 1996-cı ilin fevralında prezident S.Niyazovun İrana səfərinin yeкunu olaraq birgə bəyannamə imzalandı. Orada deyilirdi кi, «İran və Türкmənistan siyasət, iqtisadiyyat və mədəniyyət sahələrində aparılan müzaкirələrdən razıdırlar»(15). Hər iкi ölкə bölgədə mövcud böhranların, xüsusilə Taciкistan və Qarabağ münaqişələrinin birbaşa müzaкirələr yolu ilə həll olunmasının zəruriliyini vurğuladılar.

Türкmənistan Azərbaycandan sonra İranın ən çox iqtisadi əməкdaşlıq etdiyi türк respubliкasıdır. Ortaq coğrafi sərhədlər və bazar iqtisadiyyatına кeçən Türкmənistanın cari ehtiyacları buna imкan yaradan ən mühüm amillərdir. Təsadüfi deyil кi, 1991-1994-cü illərdə İrandan Türкmənistana ixrac edilən malların dəyəri 35 min dollardan 19 milyon dollaradəк artmışdı (16).

İкi ölкə arasında neft-qaz və enerji sahələrində birgə layihələr həyata кeçirilir. 1992-ci il sazişinə əsasən Turкmənistanın qaz və neft boru кəmərlərinin İrandan кeçməsi, iкi ölкə arasında yeni eleкtriк xətlərinin qurulması, birbaşa telefon bağlantısı, çarter uçuşları кimi məsələlərdə işbirliyi yaranmışdı (17). İran həmçinin Türкmənistanın təbii qaz ixracındaкı çətinliyindən istifadə edərəк, bu ölкədən böyüк miqdarda qaz idxal etməк niyyətində idi (18).

İran neft və qazın nəqli sahəsində Türкmənistan ilə sabit münasibətlər qurmuşdur. 1996-cı ilin deкabrında İran, Türкiyə və Türкmənistan nazirləri arasında Tehranda кeçirilmiş görüşdə də əsas mövzu qaz emalı və nəqli sahəsində regional əməкdaşlıq olmuşdur. Tehran mühüm geoiqtisadi istiqamət кimi, кommuniкasiya siyasətinə böyüк əhəmiyyət verirdi. Bu xətt İranın geostrateji və iqtisadi üstünlüyünü təmin etməli idi. 1998-ci ilin birinci yarısında Türкmənistan İrana 1 milyard кub metr qaz ixrac etmişdi (19). Tehran türкmən qazının İrana nəqli layihəsinin tərкib hissəsi кimi Türкmənistanda «Körpəcə» Qaz Emalı zavodu tiкmişdi (20). İran Türкmənistanın qaz ixracındaкı çətinliyindən istifadə edərəк oradan daha çox qaz idxal etməк istəyirdi. 1998-ci ildə Tehranın hər min кub metr qaz üçün 32 dollar təкlif etməsini Aşqabad rədd etdi (21).

Aşqabad qaz ixracında nəzərdə tutduğu xəttin biri İran-Türkiyə-Avropa, digəri isə Əfqanıstan-Pakistan-Hind okeanı xəttidir (22). V.Qampel qeyd edirdi ki, İran, Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan regional qaz kəmərinin çəkilişinə yol verməmək üçün fəal siyasət yeridirdi (23). İran cənubda Ərəbistan dənizinin dibi ilə Hindistana qaz kəməri çəkməyi planlaşdırmışdı. Cənub istiqamətdə türkmən qazının ixracının təcrid olunması İranın bu regiondakı siyasətinin mühüm ünsürü idi. İ.A.Novikov qeyd edirdi ki, İran Əfqanıstan ilə dialoqda Rusiya ilə yanaşı, vasitəçi kimi Aşqabadın imkanlarından istifadə etmişdir. Belə ki, Türkmənistan və Əfqanıstan rəhbərliyinin yaxınlaşması regional qaz kəmərinin tikintisinə gətirib çıxara bilər. Buna görə də Aşqabad və Kabulun yaxınlaşması çətin ki, İranı qane edə bilsin (24).

İranın xarici siyasətində digər mühüm istiqamət təbii qazın nəqli sahəsində Rusiya-Türkmənistan əməkdaşlığını təcrid etmək, ona maneçilik törətməkdir. Türkmənistan İrana iki ölkəni birləşdirə biləcək İran-Türkmənistan qaz kəmərinin inşa edilməsini təklif etmişdir. Bu məsələ Türkmənistan prezidentinin İranın xarici işlər naziri K.Xərrazi ilə görüşündə müzakirə olunmuşdu (25).

İki ölkə arasında maliyyə və bank işi sahəsində işbirliyi davam etmişdi. İranın Sədarət bankı Türkmənistanda ortaq banklar yaratmışdır. Bunların sayəsində ölkə iqtisadiyyatının inkişafına təkan verən irimiqyaslı layihələrin maliyyələşdirilməsi mümkün olmuşdur. 1996-cı ildə hər iki dövlətin mərkəzi bankları arasındakı razılığa əsasən iqtisadi əməkdaşlığın sadələşdirilməsi nəzərdə tutulmuşdu. İranın özəl bölməsi də Türkmənistanda iqtisadi fəaliyyət qurmuşdur. Hələ 1992-ci ildə İranın 30-a yaxın firması burada fəaliyyət göstərirdi.

İran-Türkmənistan münasibətləri qarşılıqlı faydalı xarakter daşımış və o qədər də problemlərə malik olmamışdır. Aşqabadın dinc, bitərəf siyasəti İranı tamamilə təmin edirdi. Türk müəllifi M.Aydının fikrincə, İran bu ehtiyatlı və elmli diplomatiyasının nəticələrindən bəhrələnməyə başlamış Türkmənistan ilə ikitərəfli yaxşı əlaqələr qurmaq yolunda əhəmiyyətli məsafələr qət etmişdir (26).

İ.A.Novikovun fikrincə, «İran Türkmənistan ilə daha sıx münasibətlərə ümid edə bilməz və buna ehtiyac da hiss etmir». Lakin belə bir fikirlə razılaşmaq olmaz. Ona görə ki, Tehran Orta Asiya dövlətlərilə əlaqələrini inkişaf etdirmək üçün Türkmənistanın strateji mövqeyindən həmişə bəhrələnmişdir. O, daha sonra qeyd edir ki, «bunlarla yanaşı İran tərəfi Azərbaycanın və Özbəkistanın maraqlarına qarşı durmaq üçün Türkmənistandan qətiyyətlə, amma əbəs yerə istifadə etməyə çalışmışdır. Lakin Tehran hələlik bu məsələdə tərəqqiyə nail olmamışdır» (27).

İran Xəzər dənizi problemi üzrə də Türkmənistana böyük ümidlər bəsləyir. Tehran təbii qazın ixracı və neft yataqlarının istismarı sahəsində üstünlük əldə etmək üçün Xəzər problemindən istifadə etməyə çalışırdı. 1996-cı ildə iki ölkə dövlət başçılarının görüşü zamanı onlar sahilboyu ölkələrin müştərək istifadəsi üçün Xəzər dənizinin statusunun müəyyənləşdirilməsini, Xəzər sahili ölkələrin xarici işlər nazirlərinin iclasının keçirilməsini və bu dənizin çirklənməsinin qarşısını almaq üçün tədbirlər görülməsini təkid etdilər.

İran həm də Türkmənistan üçün iş ortağı və dünyaya açılan qapıdır. Bu qapı vasitəsilə Bəsrə körfəzinə, Türkiyəyə, Avropaya və Aralıq dənizinə çıxmaq mümkündür. Türkmənistan mühüm pambıq tədarükçü-

sü olduğuna görə, iki ölkə ortaq iplik sənayesi yaratmışlar. Türkmənistanda irriqasiya sistemlərinin yenidən qurulmasında, iplik-pambıq istehsalında Tehran iştirak edir. Türkiyə də bu layihədə fəal iştirak edir. O, praktiki olaraq türkmən pambığının 40-50 faizini satın alır. Bu hal İrana böyük təsir göstərdiyindən, o, sərhədboyu Ətrək çayının və digər su ehtiyatlarından istifadə edilməsini Türkmənistana təklif etmişdir.

İki ölkə arasında əkinçiliyə əsaslanan sənaye sahələrinin inkişaf etdirilməsi məsələsində işbirliyi yaradılmışdır. Özəl bölmələr arasında keramika və digər məmulatların istehsalı üçün ortaq sərmayələr qoyulması təcrübəsi vardır.

İİR 90-cı illərin ortalarında Türkmənistan ilə daha sıx, faydalı və etibarlı münasibətlər qurmuşdur. «Böyük ipək yolu» transasiya dəmiryol magistralı ideyası Orta Şərq regionunun Avropa, Uzaq Şərq, Hindistan və Cənub Şərqi Asiya ölkələrilə əlaqəsini nəzərdə tuturdu. Bu layihə çərçivəsində 1995-ci ildə İran Bəfk-Bəndər Abbas dəmir yolunun 700 kilometrlik sahəsini istismara vermiş, 1996-cı ildə isə İran və Mərkəzi Asiyanın dəmiryol şəbəkələrini birləşdirən Məşhəd-Sərəhs-Tecən xəttinin istismara verilməsi yüklərin Mərkəzi Asiyadan Fars körfəzi limanlarına ən sürətli tranzitini təmin edir.

1996-cı ilin fevralında iki ölkə prezidentlərinin görüşündə Asiyanın nəqliyyat sistemlərini Avropaya birləşdirən Məşhəd-Sərəhs dəmiryolunun təntənəli açılışının təşkili onlar tərəfindən bəyənildi. Onlar bölgədə beynəlxalq əməkdaşlığın inkişafı üçün bu dəmiryolunun strateji əhəmiyyətini dünya ölkələrinin və beynəlxalq təşkilatların rəhbərlərinin nəzərinə çatdırdılar (28).

1996-cı ildə iki ölkə arasında Hərirud çayı üzərində körpü tikintisi haqqında razılıq əldə olundu. Tərəflər həmçinin qarşılıqlı sərmayə qoyuluşları haqqında müqavilələrin imzalanmasını razılıqla qarşıladılar, Aşqabad-Göytəpə yolunun salınması, Mərv şəhərinin su təchizatı sisteminin yenidən qurulması və elevatorların tikintisində müsbət irəliləyişlərdən razı qaldıqlarını bildirdilər.

İki ölkə arasında siyasi və texniki-iqtisadi əlaqələrin artması mədəni əlaqələrin inkişafına da müsbət təsir göstərmişdir. Təhsil, elm və incəsənət sahələrində əlaqələrə üstün diqqət yetirilmişdir. 1992-ci ilin mayında Türkmənistan Tehranda keçirilən beynəlxalq kitab sərgisində iştirak etmişdi. Sərgi günlərində mədəniyyət, kitabxanaşünaslıq və poliqrafiya sahəsində əməkdaşlıq haqqında ikitərəfli sənədlər imzalanmışdı (29). Bu sazişlər hər iki ölkənin milli kitabxanalarının kitab məhsulları ilə təmin olunmasını nəzərdə tuturdu. 1993-cü ilin sentyabrında Aşqabadda İİR-nın ixtisaslaşdırılmış sərgisi açıldı. Sərginin 83 pavilyonunda müxtəlif sənaye məhsulları, toxuculuq malları, qurudulmuş meyvə və s. nümayiş etdirildi (30).

Aşqabadda İran filmlərinə maraq xeyli artmışdı. 1993-cü ilin noyabrında Aşqabadda İran filmləri həftəsi keçirildi. Əhalinin marağına görə həftə təkrar təşkil olundu. Türkmənistan Kinematoqrafiya Komitəsinin İslam təbliğatı təşkilatının sənət hövzəsilə əməkdaşlığı sayəsində təşkil olunmuş festivalın proqramına «Şilat», «Tehranın səsi», «Axırıncı şans», «Fani», «İki alma parası», «Səməndər», «İki nəfər yarım», «Kölgələr təqib edir», «Cibgirlər cənnətə getmirlər» filmləri daxil idi (31). Filmlərin bir çoxu türkmən dilinə tərcümə olunmuşdu. Bu dövrdə İranda Türkmənistan üçün bir sıra dərsliklər, lüğətlər, jurnallar çap

olunurdu.

Bütün yuxarıda deyilənlərə yekun vuraraq İranın Türkmənistana münasibətdə yeritdiyi siyasətin başlıca cəhətlərini belə qiymətləndirmək olar: türk ölkəsi olan Türkmənistan ilə olduqca sabit münasibətlərin yaradılması; Türkmənistanın vasitəçiliyi sayəsində İranın Əfqanıstanda rolunun artırılmasında bəzi uğurların əldə olunması; İranın iqtisadi cəhətdən Orta Asiya regionuna soxulmasında Türkmənistandan geoiqtisadi bir meydan kimi yararlanması; İranın tranzit yük daşımaları və iri iqtisadi-texniki layihələrin gerçəkləşdirilməsi sahəsində Aşqabadın dəstəyini qazanması.

Belə bir nəticəyə gəlmək olar ki, bütövlükdə iki ölkə arasındakı münasibətlərdə sabıtlik qorunub saxlanılmışdır. Lakin onların siyasi və mədəni əlaqələri hələlik lazımi inkişaf tapmamışdır. Onların əməkdaşlığının əsasını ticarət-iqtisadi sahədə qarşılıqlı fəaliyyət təşkil edir. Son zamanlar iki ölkə arasında bu sahədə milli maraqların müdafiəsilə əlaqədar rəqabətin artdığı nəzərə çarpır. Bu hər şeydən əvvəl Xəzər dənizinin bölgüsü və statusunun müəyyənləşdirilməsi probleminə, Əfqanıstanda vəziyyətin nizama salınmasına, karbohidrogen xammalının nəqli marşrutlarının müəyyənləşdirilməsinə yanaşmada fərqli mövqelərdən irəli gəlirdi.

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi hər iki dövlətin rəhbərliyi üçün daha ağrılı mövzulardan biridir. Xəzərin «bərabər sektorlara» (20 faiz üzrə) bölünməsinə dair İranın təklif etdiyi variant Türkmənistanın mövqeyinə ziddir. Türkmənistanın mövqeyi belədir ki, ərazi sularının 12 millik zonasının və 35 millik iqtisadi maraq zonasının ayrılması ilə dənizin orta xətti boyunca bölgünü nəzərdə tutur

İİR-ə türkmən enerji daşıyıcılarının ixracının artırılmasında tərəflərin maraqlı olması qarşılıqlı əməkdaşlığa kömək edir. Tehran türkmən yanacaq-sürtkü materiallarının əsas idxalatçılarından biridir, respublika iqtisadiyyatına kapital qoyuluşunun həcminə görə Türkiyədən sonra ikinci və ölkənin ümumi xarici ticarət dövriyyəsində dördüncü yeri tutur. 2003-cü ildə qarşılıqlı mal mübadiləsi 423 milyon dollar təşkil etmiş, 2004-cü ildə İran kapitalının iştirakı ilə Türkmənistanda 128 müəssisə qeydə alınmışdı (32).

Bütün yuxarıda deyilənlərə əlavə olaraq qeyd etmək lazımdır ki, sadalanan problem və ya çatışmazlıqlara baxmayaraq, İran-Türkmənistan əməkdaşlığının çox böyük gələcəyi vardır və inanmaq olar ki, bu münasibətlər Orta Şərqdə və Orta Asiya məkanında sülh və sabitlik işinə xidmət edəcəkdir.

## ƏDƏBİYYAT


1. Modjtaba Sadria. "Iranian strategies in Central Asia", Central Eurasian Water Crisis: Caspian, Aral, and Dead Seas, J.Kobari and M.H.Glantz (der.), United Nations University Press. New York, 1998, p. 85-88.
2. Hasan Oktay, Batıya yanaşan İran. Strateji, 1995, № 1, s.130.
3. Edmund Herzig. Iran and Former Coviet South, Royal Institute of international Affairs Publications. London, 1995, p.1-3.
4. C.Fairbanks, S.Frederick Starr, C.R.Nelson, K.Weisbrode,Strategic Assessment of Central Eurasia, Central Asia-Caucasus (SAIS) Publications, Washington DC, yanvar 2001, p. 73-74.
5. İqor P.Lipovsky, «Yeni bir siyasal kimlik arayışında Orta Asiya», Avrasya Dosyası, cilt 3, ss. 4-120.

6. Mehmet Diккaya. «Orta Asiyada yeni böyüк oyun: Türкiyə, Rusiya və İran», Avrasiya Dosyası, silt 5, (3), Sonbahar 1999, s. 200.
7. Maleкi Abbasi. Rəvabəte İran və comhurihaye Asyaye Mərкəzi. Motaleat Asyaye Mərкəzi və Qafqaz. Vol. 1, № 1, summer 1992, s.5-10.
8. Mehmet S.Erol. İranın Orta Asiya Politiкası: Deneyimli Aкtörün Güvenliк Sorunu ya da Ava giden Avlanır. Stratejiк Analiz. № 28, Ağustos 2002, s.66-74.
9. Tehran times, 31.03.1992.
10. http://poli.vubac.be/pabli/cont borders/rus/ ch 0701.htm.
11. Ahmet Raşit. Orta Asiyanın Dirilişi, Cep Yayınları, İstanbul 1995, s. 250
12. Bulletin of the Summary of the Important News of the International Broadcasting Agencies. N 29. Irans Ministry of Foreign Affairs. 12 May 1992, p2.
13. Ahmet T.Kuru, Uluslararası Ortam və Bölgesel Enteqrasyon Teorileri İşığında Türк Birliyi Meselesi, Mim Kemal Öкке., Geçiş Sürecinde Orta Asya cumhuriyetleri, Alfa Yayınları, İstanbul, 1999, ss.180-181.
14. Turkmenistan 4-th quarter 1998, EIU Country Report, p. 21-22
15. İran xəbərləri. №120, 12.02.1996, s.4.
16. IRNA, http://www.net/ran.com
17. DEİK, «Türкmenistan», Bülletin, iyun 1994.
18. http://www.farsiiran.narod.ru
19. Turkmenistan 4-th quarter 1998, EIU Country Report, p. 21-22.
20. Avrasiya Dosyası. İran Özel, Sonbahar 1999, cilt 5, sayı 3, s.200.
21. Turkmenistan 4-th quarter 1998, EIU Country Report, p. 21-22.
22. Werner Gumpel. pp. 25-26.
23. IRNA News. 5 february 2001.
24.Werner Gumpel. Orta Asiya cumhuriyetlerinde eкonomiк gelişme ve enteqrasyon, Avrasya Etutleri, İlкbahar 1998, s. 25-26.
25. Новиков И.А. Исламский мир и среднеазиатские государства СНГ и Азербайджан.– http://www.kisi.kz/parts/monitoring/04-2004/16-04. mon.4-htm./
26. http://www.mignews.com.ua/events/world/106974.html
27. Mustafa Aydın. New Geopolitics of Central Asiya and Caucasus, SAM (Sentral for Strategic Research) Publications, Ankara, 2000, pp. 41-42.
28. İran xəbərləri. İİR-in Baкıdaкı səfirliyinin mətbuat şöbəsinin xəbərlər bülleteni. №120, 12.02.1996. s.6.
29. http://www.kisi.kz/parts/monitoring/04-2004/16-04.mon.4-htm
30. İran xəbərləri. №9, 30.09.1993. s. 16.
31. İran xəbərləri. №3, 26.11.1993, s. 23.
32.http://www.iimes.ru/rus/stat/2004/09.10.04.htm

## ИРАНО-ТУРКМЕНСКИЕ ВЗАИМООТНОШЕНИЯ

**А.А.МАМЕДЛИ**

## РЕЗЮМЕ

В статье говорится об установлении и развитии политических, технико-экономических связей между двумя государствами. После исламской революции Тегеран стал уделять особое внимание взаимоотношениям с Ашхабадом. Технико-экономические отношения между двумя государствами имели взаимовыгодный характер. Участие обеих стран в международных и региональных организациях, дали положительный импульс политическим отношениям между двумя странами.

**IRANIAN-TURKMEN RELATIONS**

**A.A.MAMMADIH**

**SUMMARY**

In this article is spoken about the establishment and development of political, technical and economical relations between two states. After the Islamic revolution Teheran began to pay special attention for mutual relations with Ashgabat. Technical and the economical attitudes between two states had mutually advantageous character. Participation of both countries in the international and regional organizations, gave a positive impulse to political relations between two countries.